# Bakıda Menecment və İnnovasiya Forumu keçirilib




Mayın 21-də Bakıda Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə Menecment və İnnovasiya Forumu keçirilib.

ASK-ın prezidenti Məmməd Musayev ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycanda davamlı iqtisadi artımın təmin olunmasında özəl sektorun rolunun gücləndirilməsi üçün əlverişli imkanların yaradıldığını deyib.

Bildirib ki, sahibkarlığın inkişafı üzrə qəbul edilmiş Fərman, Sərəncam və Dövlət Proqramları bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin edib.

"Çalışmalıyıq ki, ölkəmizdə müvafiq idarəçilik səriştələrinə malik olan kadrlar iqtisadiyyatın bir çox sahələrində idarəetməni düzgün təşkil etməklə yüksək göstəricilərə nail olsunlar. Düşünürəm ki, mütəxəssislərin idarəetmə səriştəliliyinin artırılması məqsədilə Təhsil Nazirliyi ilə yanaşı, əlaqəli qurumların da müvafiq inkişaf proqramlarının təşkil olunmasının vacibliyi vurğulanmalıdır. Ölkədə peşəkar səviyyəli texniki mütəxəssislərlə yanaşı, peşəkar menecer kadrlarının hazırlanması günün ən vacib məsələlərindən biridir", - deyə o qeyd edib. M.Musayev deyib ki, öz ətrafında 6 mindən çox sahibkarı birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə başçısının bu tövsiyələrini əsas tutaraq ASK-ın nəzdində "Menecment komissiyası" yaradıb. Komissiyanın üzvləri və Azərbaycan Menecment Assosiasiyasının təşəbbüs qrupu Azərbaycan Sahibkarlar Konfederasiyası ilə birgə idarəçilik üzrə biliklərin və təcrübələrin inkişafına xüsusi diqqət göstərir.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov isə forumun aktuallığını vurğulayaraq bildirib ki, Azərbaycanda sahibkarlar üçün əlverişli şərait yaradılıb, bu istiqamətdə menecment və innovasiyaların yaradılması çox təqdirəlayiq haldır.

Nazir müavini vurğulayıb ki, bu günədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən 36 minədək sahibkara layihələrin ümumi dəyəri 5,3 milyard manat təşkil edən 2,3 milyard manat məbləğində güzəştli kredit verilib. Onun sözlərinə görə, bu layihələrin reallaşması nəticəsində 165 mindən çox yeni iş yeri yaradılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, bu il Azərbaycanda özünüməşğulluq proqramına 7 min nəfər cəlb olunacaq. 2018-ci ildə özünüməşğulluq proqramı 6,5 dəfə genişləndirilərək 7,3 min şəxsi əhatə edib.

Forumda "Strategiyanın formalaşmasında trendlərin rolu", "Korporativ mədəniyyətin formalaşdırılmasında liderliyin əhəmiyyəti", "Korporativ idarəetmə - qlobal praktikalar və trend" mövzularında çıxışlar dinlənilib.